Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 dekabr tarixli 1959 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının sxemi bu qərarın 1-17 nömrəli əlavələrinə uyğun olaraq müəyyən edilsin.

2. Dövlət büdcəsindən maliyyələşdirilən bir sıra təşkilatlarda bilavasitə ixtisası üzrə çalışan işçilərə bu qərarın 1-3-cü, 6-7-ci və 9-17-ci əlavələrinə əsasən müəyyən edilmiş vəzifə maaşlarına elmlər doktoru elmi dərəcəsi üzrə 50 manat, fəlsəfə doktoru elmi dərəcəsi üzrə 30 manat, 4-cü, 5-ci və 8-ci əlavələrinə əsasən isə müəyyən edilmiş vəzifə maaşlarına elmlər doktoru elmi dərəcəsi üzrə 38 manat, fəlsəfə doktoru elmi dərəcəsi üzrə 18 manat məbləğində əlavələr ödənilsin.

3. "Dövlət büdcəsindən maliyyələşdirilən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 199 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1033; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 23 noyabr tarixli 189 nömrəli və 2011-ci il 24 noyabr tarixli 190 nömrəli qərarları) (3-6-cı bəndləri istisna olmaqla) ləğv edilsin.

4. Bu qərar 2011-ci il dekabrın 1-dən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur Rasi-zadə***

***26 yanvar 2012-ci il***

***№ 20***